www.525.az Facebook.com/525.az İnstagram.com/525ciqezet

# Şəfiqə Axundovasız 10 il

İyulun 26-sı Azərbaycan musiqisinin görkəmli nümayəndəsi, Xalq artisti, Şərqdə ilk opera yazan qadın bəstəkar Şəfiqə Axundovanın anım günüdür. AZƏRTAC xəbər verir ki, görkəmli bəstəkarın vəfatından 10 il ötməsinə baxmayaraq, onun yaratdığı bənzərsiz sənət nümunələri hər zaman böyük maraqla qarşılanır.

1924-cü ildə Şəki şəhərində dünyaya göz açan Şəfiqə Axundova A.Zeynallı adına Bakı Musiqi Məktəbində oxuyarkən bəstəkar Üzeyir Hacıbəylidən dərs alıb, müəlliminin tövsiyəsi ilə təhsilini Azərbaycan Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyası) davam etdirib və bəstəkarlıq ixtisası üzrə Boris Zeydmanın sinfini bitirib.

İlk bəstəsi olan "Bala" mahnısını müəllimi Üzeyir Hacıbəyliyə göstərərək onun xeyir-duasını alan Şəfiqə Axundova ustadından bəhrələndiyi yaradıcılıq ənənələrinə və yüksək insani keyfiyyətlərə ömrünün sonunadək sadiq qalıb. Təsadüfi deyil ki, Ş.Axundovanın əsərləri milli musiqi və professional bəstəkarlıq ənənələrini özündə birləşdirib. O, 1972-ci ildə yazdığı "Gəlin qayası" operası ilə Şərqdə ilk opera yazan qadın bəstəkar kimi tarixə düşüb. "Gəlin qayası" operasında klassik musiqi ilə muğamın qovuşması Üzeyir Hacıbəyli üslubunun saxlanmasını bir daha təsdiq edib. Operada ariyalarla yanaşı, muğam parçalarının da səslənməsi bəstəkarın xalq musiqisini mükəmməl bilməsindən irəli gəlib və əsərə uğur qazandırıb.

Şəfiqə Axundovanın zəngin yaradıcılığına "Ev bizim, sirr bizim" operettası, böyük simfonik orkestr üçün süitaları, xor üçün silsilə əsərləri, "Aydın", "Əlvida Hindistan!", "Nə üçün yaşayırsan?" səhnə əsərlərinə, "Təlxəyin nağılı", "Dovşanın ad günü" və digər uşaq tamaşalarına yazdığı musiqilər, yüzlərlə mahnı və romans daxildir. Onun "Sənin nəğmən", "Çinar və mən", "Həyat, sən nə şirinsən?!", "Sular qızı", "Ötür illər", "Nədən oldu", "Bu torpağa borcluyam", "İlhamını alar aşiq", "Doğma diyarım", "Şəki", "Gözlərimin işığı sənsən", "Gəl, ey səhər", "Mehriban olaq", "Yaşatdın elləri", "Sevgi ölmür" və digər lirik mahnıları xalq arasında çox məşhurdur. Bu əsərlər ən kədərli vaxtlarımızda dərdimizə su səpir, bizə xoş ovqat bəxş edir. Bəstəkarın musiqi yazdığı şeirlər Azərbaycan poeziyasının ən gözəl nümunələridir. O, Süleyman Rüstəm, Nəbi Xəzri, Bəxtiyar Vahabzadə, Nəriman Həsənzadə və digər şairlərin əsərlərinə mahnılar bəstələyib.



Şəfiqə Axundovanın əsərləri Şövkət Ələkbərova, Gülağa Məmmədov, Fatma Mehrəliyeva, Anatollu Qəniyev, Rübabə Muradova, Zeynəb Xanlarova, Elmira Rəhimova, Zaur Rzayev, Səkinə İsmayılova, Gülyaz və Gülyanaq Məmmədova bacıları, Eldar Ələkbərov, Türkiyədə İbrahim Tatlısəs və bir çox istedadlı ifaçılar tərəfindən sevilə-sevilə oxunub, bu gün də ifa edilir.

Xalq artisti Şəfiqə Axundova 2013-cü il iyulun 26-da Bakıda vəfat edib, II Fəxri xiyabanda dəfn olunub.